# QATİL HƏMİŞƏ CİNAYƏT YERİNƏ QAYIDIR...



*Rafiq HACIYEV,*
*yazıçı-publisist*

İşini qurtarandan sonra qana bulaşmış əlləri ilə alnında puçurlanmış tər damcılarını sildi. Pəncərənin yanında dayanıb az qala nəfəs almadan pərdənin arxasından ətrafı dinlədi: bütün şəhər yuxuda idi. Gecə o qədər qaranlıq idi ki, çöl görünmürdü. Soyuq və nəm külək bayaqdan bəri sakitləşməmişdi, yenə də döngələrdə burulub çırpınaraq küçələrdə çapırdı: yorulmadan damlarda guruldayır, borularda inləyir, elektrik məftillərində fit verir, şalbanların içində sanki yeknəsəq bir ahənglə tütək çalırdı. Uzun gecələrdə gözlərinə yuxu getməyən itlərdən belə səs çıxmırdı. Hər yanda anlaşılmaz sükut hakim idi. Bayırda külək ac qurd kimi ulayırdı.

Geri dönüb bayaqdan bəri qanlarına susadığı meyitlərə ləzzətlə baxdı. Manyaklara məxsus şirin-şirin güldü. Əyilib gəlinin və qızın qulağındakı sırğaları dartıb götürdü. Sonra qadının barmağındakı üzüyü də çıxartdı. Qənimət kimi əlinə bunlar keçdi.

Gecənin artıq bir aləmi idi və bu zaman küçəyə qədəm basmağa ərindi. Getməməyi qərar aldı. Bayır zülmət qaranlığın içində nəfəs alırdı. Gecə onun gözlərinə yapıncı kimi qara, heyula kimi dəhşətli göründü. Bir azdan onu kəsələt basdı. Çox qan itirmiş adam kimi uzun zaman hərəkətsiz qalıb haçalı fikirlər içində öz halını düşündü. Tutduğu işə ürəyində haqq qazandırdı. Özü də bilmədən həyəcanı artdı, hövsələsi daraldı, səbri tükəndi. Bircə səhər yaxın açılsaydı.

Həyətə düşüb evin qarşısındakı stolun üstünə qoyulmuş paltar vannasını götürüb içəri apardı. Su qızdırıb əynindəki qana bulaşmış cins şalvarı yudu. Onu qurutmaq üçün qaz batareyasının yanından asdı. Bundan sonra əllərinin müxtəlif yerlərində olan qan ləkələrini, dəmir lomu və mətbəx bıçağını tələsmədən, aramla isti su ilə yuyub təmizlədi. Üst-başını düzəldib çölə çıxdı. Artırmanın təkyəsinə söykənib bir-neçə saniyə qaranlığa göz gəzdirdi. Qorxaq tülkü kimi ətrafına boylana-boylana bağda yer xəlvətlədi. Bıçağı və lomu qamış çəpərin dibindəki torpağa basdırıb, yenidən otağa qayıtdı.

Gecənin qalan hissəsini pəncərə qarşısında oturdu. Qəfildən ağlına gəldi ki, od vurub evi tamam yandırsın. Təzədən bir də həyətə qayıtmalı oldu. Əl damına yaxınlaşıb orada içərisində ağ neft olan kanistr və bir şüşə butulka tapıb aynabəndə qalxdı. Nə qədər qəribə də olsa, meyitlərə yazığı gəldiyi üçün bu əməlini həyata keçirmədi.

İçəridə o başa-bu başa xeyli gəzindi-yuxusunu qaçırtmaq üçün. Otaq havasızdı. O, isə kip bağlanmış pəncərələri açmaq iqtidarında deyildi. Bir-neçə saat da belə ötdü...

...Naməlum şəxs yuxunun son qalıqlarını əsnəklə qovub, bədəni uçunauçuna, ayaqları bir-birinə dolaşa-dolaşa həyətdən çıxdı. Hava qaranlıq idi: tərs kimi küçənin işıqları da sönmüşdü. Döngəni burulub bir qədər gedəndən sonra başqa küçəyə çıxdı: üzünə işıq düşdü, az da olsa özünə gəldi. Amma halı yaxşı deyildi. Titrəyirdi. Özü də bilmirdi ki, nədən: sümüyünə işləyən soyuqdanmı, yoxsa keyləşdirici yorğunluqdanmı? Bədəni ahəngdarlığını itirmişdi, bütün damarları küt-küt sızıldayırdı. Sərxoşlar sayağı başı bədəni üstə qalmırdı.

Küçədə cövlan eyləyən sərt küləkdən qorunmaq üçün paltosunun yaxalığını qaldırdı. Küləyin səsi dözülməz dərəcədə qəmgin idi, adamın ürəyində acı qüssə, narahatlıq, həyəcan doğururdu. Xırdaca ağaclar başlarını aşağı əymişdilər, sanki hər necə olursa-olsun torpaqla öpüşmək istəyirdilər. Öz budaqlarından qopub quş dəstələri kimi bir yerdən başqa yerə uçan yarpaqlar havada dolanırdı. Ətrafa çökən dərin sükutu yalnız küləyin uğultusu pozurdu.

Üzünü küləyin tikanlı cərəyanına verib, onun iliyə işləyən soyuğunu qanında hiss edə - edə gedirdi. Dənizçilər demişkən "külək onun alnına əsirdi". Qollarında sızıldayan ağrı deyəsən yavaş-yavaş keçirdi, yorğunluq hələ də canından çıxmamışdı. Get-gedə bədəninə zəifləşdirici ağırlıq çökürdü, gözləri yumulurdu. Bu yuxu deyildi, bir növ mürgüləmə idi.

Şəhər hələ gözlərini ovuşdurub yuxusundan oyanmamışdı.

Fevralın 10-u idi...

### AĞLASIĞMAZ NƏTİCƏ

Xüsusi amansızlıqla öldürülmüş üç şəxsin qatilini və ya qatillərini axtarıb tapmaq üçün neçə gün idi ki, rayon prokurorluğunda qızğın iş gedirdi.

Ölüm işində diqqəti cəlb edən hər hansı bir iz demək olar ki, yox idi. Bu isə belə qənaətə gəlməyə əsas verirdi ki, qatil və ya qatillər ya çox təcrübəli cinayətkarlardır, ya da ki, bu bir təsadüfdür.

Əlbəttə ki, müstəntiqin bu sahədə öz fikirləri var idi. İlqar Hacızadənin prokurorluq orqanlarında topladığı iş təcrübəsi ona belə bir yazılmamış qanun diktə etmişdi ki, qatil nə qədər təcrübəli olursa olsun, özü belə bilmədən, hiss etmədən hadisə yerində, kiçik də olsa, müəyyən iz buraxır.

O, Bakı Dövlət Universitetinin hüquq fakültəsinin əyani şöbəsini əla qiymətlərlə bitirdikdən sonra prokurorluq orqanlarında-Bakı şəhəri Qaradağ rayon və Lənkəran rayon prokurorluqlarında müstəntiq vəzifələrində işləmişdi. Fəaliyyəti dövründə bir sıra ağır cinayətlərin üstünü açmışdı. İndi Hacıqabul Rayon Prokurorluğunun müstəntiqi idi.

İlqar Hacızadə haqqında məlumat verməyimin səbəbi var. Əvvəla o, prokurorluq orqanlarının bacarıqlı işçilərindən biri sayılırdı, ikincisi, haqqında danışdığımız cinayətin açılmasında o, böyük fəaliyyət göstərmişdi.

Bəli, İ. Məmmədov küçəsindəki 64 nömrəli evdə törədilmiş qətlin istintaqı zamanı sözün həqiqi mənasında çox gərgin işləmək lazım gəldi.

Tamamilə təbiidir ki, qətlə yetirilmiş ev sahiblərinin - Gülbalanın, onun qızı Gülgəzin və nəvəsi Sevincin şəxsiyyəti istintaq-əməliyyat qrupunun maraqlandırmaya bilməzdi. Qarşıya saysız-hesabsız suallar çıxırdı:

- Bəlkə ev sahibi Gülbala cinayətkarlarla tanışdır?
- Bəlkə ortada ədavət söhbəti var?
-Bəlkə gəlinin əri ilə bir düşmənçiliyi olubdur?
- Bəlkə namus məsələsidir?
- Bəlkə...

Bütün bu "bəlkə"ləri yoxlamaq, yalnız ilk baxışda asan görünə bilərdi. Lakin istintaq - əməliyyat qrupunun üzvləri həmin vəzifənin öhdəsindən çox məharətlə gəldilər.

Ev sahibinin və onun qızının həyat tərzi, tanışları öyrənildi, xeyli adam gözə görünməyən süzgəcdən keçirildi. Əlavə yeni bir məlumat bilmək ümidi ilə hər gün mərhumların hüzn mərasimlərində iştirak edildi. Yas mağarına qədəm basan hər bir adamın davranışı, oturuşu-duruşu, diqqət mərkəzində saxlanıldı. Müxtəlif mülahizələr, fərziyyələr irəli sürüldü. Axı, sonrakı axtarışlar zamanı həyətdəki çəpərin dibindən torpağa basdırılmış mətbəx bıçağı və dəmir lom da tapılmışdı. Yeni suallar meydana çıxmışdı:

- Həmin bıçaq və lom qatilindirmi?
-Əyər qatilindirsə, onda onları qatilə kim veribdir?
-O, bıçağı və lomu özü ilə gətirib, yoxsa evdən götürübdür?

Cinayətin üstünün açılmasını mürəkkəbləşdirən bir cəhət də ondan ibarət idi ki, qətlin motivini müəyyənləşdirmək çətinləşmişdi. Ona görə ki, mərhum, 76 yaşlı Gülbala uzun illər ərzində nə elə bir səlahiyyət sahibi olmamışdı, nə də ki, kifayət qədər var-dövlət yiyəsi deyildi. İxtiyar yaşlı qocanın sinninin bu vaxtında kimin iləsə ədavət saxlamasını güman etməyə əsas da yox idi. Bütün qohum-qonşular onu sakit təbiətli, heç kəslə işi olmayan ağsaqqal adam kimi xarakterizə edirdilər.

Qızını da həmçinin. 42 yaşlı Gülgəz də təbiətən sakit və ailəcanlı, xeyirxah insan kimi tanınmışdı. Düzdür, həyat yoldaşı Əlikişidən boşanıb atasının yanında yaşasa da, onun əri ilə aralarında hər hansı bir düşmənçiliyə çevriləcək münaqişəli hərəkəti olmamışdı. Gözü-sözü özündə olan Gülgəz çalışdığı Əli Bayramlı Dövlət Rayon Elektrik Stansiyasında, iş yoldaşları arasında hörmət qazanmış mütəxəssis və qabaqcıl növbə rəisi kimi müsbət xarakterizə edilirdi. Gözə gələsi sərvəti də yox idi ki, həmin pulun, var-dövlətin qurbanına çevriləydi.

Qalırdı üçüncü sinif şagirdi Sevinc. Şübhəsiz ki, burada qatil və ya qatillər on yaşlı qızı ona görə öldürmüşdülər ki, o, evdə baş vermiş qanlı hadisənin canlı şahidi imiş. Bunun da cinayətkarın və cinayətkarların izinə düşməsinə kömək ehtimalı yox dərəcəsində idi.

Digər tərəfdən Gülgəzin və Sevincin öldürülərkən üstündən götürülmüş qızıl əşyalar da öz dəyəri ilə belə dəhşətli qətlin əsas motivi ola bilməzdi.

Həyətdəki çəpərin dibi qazılarkən torpaqdan tapılmış mətbəx bıçağını və dəmir lomu istintaq-əməliyyat qrupunun üzvləri kələfin ucu kimi qəbul edib, mərhumların məhz bu alətlərlə qətlə yetirilmələrinə şübhə etməsələr də, ekspertiza həmin alətlərdə barmaq və qan izləri tapa bilmədi. Çünki, qatil və qatillər çox təmiz işləmişdilər.

Bir sözlə, hər gün davam edən operativ müşavirələr, məsləhətləşmələr, gümanlar.

Nəhayət, qəti qərar çıxarıldı. Bu qərarın doğruluğuna heç kəsdə şübhə yaranmadı. Çünki hər şey diqqətlə öyrənilmişdi.

Qərarı bir cümlə ilə şərh edim: xüsusi amansızlıqla-qəsdən ağırlaşdırıcı halda öldürülmələrinə baxmayaraq ev sahiblərinin heç bir günahları yoxdur.

İstintaqı başqa istiqamətdə davam etdirmək lazım idi. Belə də oldu.

Əməliyyat-istintaq qrupunun üzvləri tez-tez hadisə yerinə baş çəkir, qətlin törədildiyi otağı diqqətlə, dəfələrlə nəzərdən keçirir, bütün izləri dönə-dönə, yaxşı-yaxşı öyrənirdilər. Mərhumların yaxınlarını da unutmur, təkrar-təkrar onları dindirir, ifadələr alır, demək olar ki, sözdən söz çəkirdilər. Hamı söhbətdən keçmişdi. Bircə Gülbalanın oğlu Xanbaladan başqa. Məlum faciədən iki gün əvvəl Bakıya vacib iş dalınca gedən Xanbala hələ də geri qayıtmamışdı.

İstintaqçılar hadisə barədə artıq tam olmasa da, müəyyən təsəvvür əldə etmişdilər. Aparılan müayinələr zamanı təsdiq olunmuşdu ki, Gülbalaya da, Gülgəzə də, Sevincə də zərbələr eyni küt alətlə vurulub. Ekspertin yekun rəyinə görə hər üç adama vurulan zərbələrə güc eyni dərəcədə sərf olunub.

Bu isə, şübhəsiz qətllərin bir şəxs tərəfindən törədildiyini sübut edirdimüstəntiqin irəli sürdüyü bu versiyanı evdəki əşyalardan götürülən barmaq izləri və Gülgəzin sağ əlinin dırnaqlarının altında ilişib qalmış kişi başına məxsus tük də təsdiqləyirdi.

Şübhələr getdikcə bir şəxsin üstündə cəmləşirdi. Gülbalanın bütün qohumlarının, o cümlədən qonşularının ifadələri, onların bilavasitə şahidlikləri ilə son günlər baş vermiş hadisələr və digər sübutlar istintaq-əməliyyat qrupuna son dərəcə ağlagəlməz fikrə düşməyə səsə verirdi.

Növbəti müşavirə zamanı müstəntiq İlqar Hacızadə yeni istintaq materiallarını prokurora təqdim edən zaman səsləndi:

- Deyəsən, hər şey aydınlaşır, cənab prokuror. Necə olursa-olsun, Xanbalanı tapmalıyıq.

Bəli, bəli, təəccüblənməyin, hörmətli oxucular. Yazının sonrakı fəsillərini oxuyun. Onda görəcəksiniz ki....

> *"Mən prokurorluqda işləyən insanların əksəriyyətini sədaqətli və peşəkar işçi hesab edirəm. Təbiidir ki, belə adamlara etimad göstərmək, etibar etmək lazımdır".*
>
> ***Heydər ƏLİYEV***



### ELEKTRİK QATARINDAKI SƏRNİŞİN

Axtarış elan olundu: Xanbala Məmmədovun şəklini polis şöbələrinin küçə divarlarına vurdular. Cinayəti törətməkdə şübhəli bilinən bu şəxsin gedə biləcəyi ünvanlar, görüşəcəyi ehtimal olunan adamlar, eyni zamanda dəmiryolu stansiyaları, Qazıməmmədən keçən qatarlar xüsusi nəzarətə götürüldü. Şəkilləri çoxaldıb prokurorluq və əməliyyat işçilərinə paylandı. Digər istintaq-əməliyyat tədbirləri də həyata keçirildi. Nəhayət, əməliyyat məlumatı alındı-Xanbala Məmmədov fevralın 17-də Bakıdan Qazıməmmədə gələn elektrik qatarındadır!

İstintaq qrupu onu Ələt stansiyasında həbs etdi-qətl hadisəsi baş verəndən yeddi gün sonra...

- Dayan, tərpənmə!

Elektrik qatarında Xanbala polis işçilərini səsini eşidib qəfildən kötək yemiş küçük kimi çənəsini dik tutaraq gözlərini bərəltdi. Onun çətin vəziyyətdə qalmasını üzündəki müdhiş ifadədən bilmək olardı. Dillənmək istədi. Ancaq boğazından həniri gəlmədi. Bir anlıq ölmüş kimi bihuş qaldı.

Müstəntiq İlqar Hacızadənin kabinetinə daxil olanda Xanbala papağı əlində büzüşüb dayandı, sifəti uzandı. Həyəcanlı və narahat idi. Qəlbi intizar və qorxu içində döyünür, dodaqları xəfif-xəfif titrəyirdi. Fənd-fərəcə ilə aradan çıxmaq istəyirdi. Lakin gözlədiyi kimi olmadı.

- Əyləşin,-deyib müstəntiq daxili bir ağrıdan əzab çəkirmiş kimi üz-gözünü qırışdırdı.-Çox dəhşətli cinayət törətmişiniz!

- Kim? - deyə Xanbala demək olar ki, pıçıltı ilə soruşdu, əllərinin necə buza döndüyünü, ağzında dilinin şişib ağırlaşdığını hiss etdi. O solğun alnını örtən tər damcılarını sildi və özünü yaxınlıqdakı stullardan birinin üstünə yıxdı, müstəntiqin hər tələbini yerinə yetirməyə hazır vəziyyət alaraq gözlərini ona dikdi. Mühakiməsiz bir iradəsizlik və köməksizlik ona hakim oldu. "Lakin nə cür olur-olsun vəziyyətdən çıxmaq lazımdır"-deyə ürəyindən keçirtdi.

- Onların günahı nə idi ki, qanlarına qəlyan elədin?

Müstəntiqin sualını eşitmirmiş kimi dilləndi:

- Siz kimləri nəzərdə tutursunuz? - Qorxduğunu hiss etdirmək istəmədiyindən Xanbalanın səsi sanki süni çıxdı.

Müstəntiq bunu hiss edib duyduğundan zərbəni kökündən vurdu:

- Qətlə yetirdiyin atanı, bacını, bacın qızını!..

İlqar Hacızadənin sözləri qəfildən açılmış güllə kimi onu tutdu. Diksindi. Qətl məsələsini eşidən kimi boğazı qurudu, cavab verməyə söz tapmadı. Elə bil otağın divarları üz-üzə gəlib onu sıxdı. Kabinetin havası süzülüb bayıra çıxdı. Gözləri alacalandı. Hər şey yerindən tərpənib rəqs etməyə başladı. O, udmağa hava tapmırmış kimi darıxdı, əlləri ilə gah boğazını, gah da sinəsini ovuşdurdu, oturduğu stuldan qalxdı. Sifəti torpaq rəngi aldı, boynunun damarları şişdi, bir anlığa danışığını itirdi. Kəkələdi:

- Mən... Mən...-Lakin nə demək istədiyini özü də bilmədi. Gözlərindən qığılcım çıxdı. Elə bil Xanbalanın sinəsinin üstünə ağır bir şal daş qoyub, ciyərlərinə kürək tərəfdən boru soxaraq dəmirçi körüyü ilə içərisinə isti hava vurdular. Kabinetdəki havanı qıc olmuş adam kimi uda-uda stulun oturacağına yıxıldı. Sanki kimsə onu əl ilə ora tulladı. Stulun ayaqları zarıyırmış kimi cırıldadı.

Müstəntiqin cingiltili səsi otağı bürüdü:

- Gülgəzi niyə öldürübsən?
- Pozğun hərəkətlərlə məşğul olurdu.
- Yetmiş altı yaşlı qocanın təqsiri nə idi?
- Qızının əməllərini bilib ona göz yumurdu.
- Bəs on yaşlı tifil hansı günah əməli törətmişdi?
- Ona görə ki, atası məlum deyildi. Gülgəz onu kimdən doğmuşdu bilinmirdi.
- Söylədiklərini nə ilə sübut edə bilərsən?

- Hadisə olan günün axşamı idi. Günorta bir araq almışdım. Saat 20:00 radələrində dədəmlə düşüb aynabəndin qabağındakı yerdə oturub araq vurmağa başladıq. Söhbət əsnasında dədəm birdən üzünü evə tərəf tutub dedi ki, bacın Gülgəz gəzir, bir maşından düşüb başqasına minir. Sən Rusiyada olanda hətta Əli Bayramlıdan evimizə iki dəfə özü ilə yad kişi də gətirmişdi. Ancaq Gülgəz elə bilir ki, mənim bundan xəbərim yoxdur. Deyirəm ki, kiçik qardaş kimi, sən də biləsən. Bu qız bizim papağımızı yerə soxur. Mən də bu namussuzluğa dözmədim və hər üçünü öldürdüm.

Müstəntiq onu başdan-ayağa süzüb ikrahla gözlərini qıydı. Bütün varlığını dəhşət bürüdü. Sinəsindən əzab, həyəcan dolu bir inilti qopdu:

- Öz məsuliyyətini yüngülləşdirmək naminə uydurursan bunları. Yalan deyirsən. Öz doğmalarına böhtan, şər atırsan. Dəlillərinin heç biri əsaslı deyil. Sən tamah məqsədi ilə, atana məxsus mülkü və əmlakı ələ keçirmək, öz ailəni həmin evə köçürmək üçün onların üçünü də qəsdən, xüsusi amansızlıqla öldürübsən.

Xanbalanın üzü qar kimi ağardı. Qorxudan yarpaq kimi əsdi. Gördü ki, bu xına o xınadan deyil, heç fələk oğlu fələk də bu vəziyyətdə ona kömək edə bilməzdi. Əllərini gicgahlarına aparıb birdən susdu, başını xəfifcə aşağı dikdi.

Müstəntiq isə təkzibolunmaz sübut və dəlilləri bir-bir sayırdı.

İlqar Hacızadənin hər sözü qırmanc kimi səslənirdi. Xanbala belə güclü və sərrast zərbə gözləmirdi. O sarsılmışdı. Əl-ayağı tərpənmirdi. Rəngi qaçmış dodaqları nə isə pıçıldayır, ancaq heç nə eşidilmirdi.

- Siz hər şeyi artıq bilirsiniz?-Xanbalanı qəhər boğdu, ölü dodağı kimi gömgöy göyərmiş dodaqları tamam səssizcə tərpəndi, əlləri ilə üzünü örtüb ağladı.

Cinayəti ifşa edilmiş adamlardakı bu əsəbiliyi müstəntiq birinci dəfə görmürdü. O, Xanbalanın öz yeni vəziyyətinə alışmasını və suala cavab verəcəyi hala düşəcəyini səbirlə gözlədi.

Təxminən beş dəqiqə keçdikdən sonra Xanbalanın dili açıldı. Elə bil o danışmır, zingildəyirdi. Onun üzü qapqara qaralmışdı, qıyılmış göz qapaqları arxasından baxan bədxah gözləri tikə kimi parıldayırdı.

O, törətdiyi cinayət əməlini gözləri önündən keçirirdi...

(əvvəli ötən saylarımızda)

(ardı növbəti sayımızda)